# TİKİNTİYƏ İCAZƏLƏRİN VERİLMƏSİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

*Sabit Bağırov*
*Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu*

BAKI 2013

# Azərbaycan Respublikası Prezidentinin “Sahibkarlığın inkişafı ilə bağlı tədbirlər haqqında” 2014-cü il Martın 3 tarixli Fərmanı

Azərbaycan Respublikasının Nazirlər Kabineti qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla iki ay müddətində:

2. AR Ədliyyə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, AR Fövqəladə Hallar Nazirliyi, AR Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, AR İqtisadiyyat və Sənaye Nazirliyi, AR Əmlak Məsələləri Dövlət Komitəsi, AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi, AR Səhiyyə Nazirliyi və AR Energetika Nazirliyi ilə birlikdə tikintiyə icazələrin verilməsi sahəsində mövcud prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

# Doing Business – 2014,
# Ambar tikintisinə icazələrin verilməsi

İndikatorlar:

Prosedularının sayı
- Bütün müvafiq sənədlərn təqdimi və tələb olunan icazələrin alınması;
- Yoxlama və baxışların tamamlanması və müvafiq bildirişlərin əldə olunması;
- Su, kanalizasiya və telefon xətlərinə qoşulma;
- Ambarın qeydiyyatdan keçirilməsi (əgər tələb olunursa);

Prosedurların tamamlanması müddəti (təqvim günlərinin sayı)
- Məlumatın əldə olunmasına sərf edilən günlər sayılmır;
- Hər bir prosedurun müddəti ayrı gündən hesablanır (on-line keçirildikdə nəzərə alınmır);
- Yekun sənəd aldıqda prosedurlar tamamlanmış sayılır;
- Reallıqda sərf edilən günlərin sayı (rəsmilərlə kontaktlara sərf olunan vaxt nəzərə alınmır)

Xərclər (MMG-in adam başına düşənin %-i, 6050 ABŞ dolları)
- Yalnız rəsmi xərclər (rüşvətlər sayılmır);

# Doing Business – 2014, Ambar tikintisinə icazələrin verilməsi

Doing Business araşdırmasında sadə komersiya ambarının tikintisi və onun su, kanalizasiya və telefon şəbəkəsinə qoşulması ilə əlaqədar kiçik və ya orta sahibkarlıq subyekti tərəfindən bütün razılaşmaların əldə olunması prosedurları, müddətlər və xərclər təhlil edilir.

Araşdırmada böyük şəhərdə və torpaq üzərində tikilən, memar və texniki plana malik (lisenziyası olan memar və mühəndis tərəfindən hazırlanmış) ambar nəzərdən keçirilir. Ambarı tikən şirkət MMC olmalıdır, tikinti sektorunda fəaliyyət göstərməli və 60 inşaatçı və digər işçisi olmalıdır.

# Doing Business – 2014,
# Ambar tikintisinə icazələrin verilməsi

Azərbaycan üzrə təhlil 415678 AZN qiymətində olan ambarın tikilməsi üçün alınan icazələri əhatə edir.

Təhlil tikinti lisenziyaları üzrə ekspertlərin (memarlar, mühəndislər, tikinti üzrə hüquqşünaslar, tikinti şirkətləri, komunal xidmətlər üzrə təcizatçılar və dövlət rəsmiləri) məlumatlarına əsaslanır.

# Azərbaycanda tikintiyə icazə alınmasını tənzimləyən qanunvericilik

1. Azərbaycan Respublikasının Şəhərsalma və tikinti Məcəlləsi. 14-cü fəsil. Tikintiyə icazənin verilməsi üzrə icraat;
2. Su təchizatı və tullantı suları haqqında AR Qanunu;
3. Sanitariya-epidemioloji salamatlıq haqqında AR Qanunu;
4. Yanğın təhlükəsizliyi haqqında AR Qanunu;
5. Ekoloji təhlükəsizlik haqqında AR Qanunu;
6. Dövlət enerji nəzarəti qaydaları və 10-larla digər qaydalar;

# ŞƏHƏRSALMA VƏ TİKİNTİ MƏCƏLLƏSİ İLƏ TƏNZİMLƏNƏN MƏSƏLƏLƏR

- Tikintisinə icazə tələb olunan tikinti obyektləri;
- Tikintiyə icazə verilməsinin ümumi qaydaları;
- Tikintiyə icazə ilə bağlı icraatda maraqlı şəxslərin iştirakı;
- Tikintiyə icazənin qüvvədə olma müddəti;
- Təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin tikintisinə icazənin verilməsi;
- Tikintisinə icazə tələb olunmayan tikinti obyektləri;
- Məlumatlandırma icraatı;
- Reklam qurğularının tikintisinə icazənin verilməsi;
- Tikintiyə icazə verən orqanın öhdəliyi;
- Tikinti layihələrinin tərkibi;
- Texniki şərtlər;
- Tikinti meydançası;
- Tikintiyə başlanılması üçün hazırlıq işlərinin aparılması

# Azərbaycanda tikintiyə icazə alınmasını tənzimləyən qanunvericilik

Təhlillər göstərir ki, Azərbaycanda tikintiyə icazələrin alınmasını tənzimləyən Qanunvericilik (Məcəllələr, Qanunlar, Nazirlər Kabinetinin Qərarları, müxtəlif nazirliklərin qaydaları və s.) həddindən artıq mürəkkəbdir. Bu bir tərəfdən biznesin inkişafını ləngidir, digər tərəfdən isə onu “kölgə” sektoruna yönəldir.

# Doing Business – 2014: tikintiyə icazənin alınması indikatoru üzrə Azərbaycandakı prosedurlar

1. Bakı Şəhər İcra Hakimiyyətinə tikintiyə icazə üçün müraciət 15 gün, 1100 AZN
2. Bakı şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma İdarəsi tərəfindən tikinti sahəsinin yerindəcə ölçülərinin yoxlanılması 20 gün, 800 AZN
3. Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən tikinti üçün torpaq ayrılması barədə sərəncamın verilməsi 20 gün, 6 AZN
4. Su və kanalizasiya xidmətləri üçün Azərsu ASC-dən razılıq / rəy /şərtlərin əldə edilməsi 10 gün, 0 AZN
5. Gigiyena və Epidemiologiya Mərkəzindən razılıq / rəy / şərtlərin əldə edilməsi 15 gün, 0 AZN
6. Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətindən razılıq / rəy / şərtlərin əldə edilməsi 15 gün, 0 AZN
7. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən razılıq / rəy / şərtlərin əldə edilməsi 15 gün, 0 AZN

# Doing Business – 2014: tikintiyə icazənin alınması indikatoru üzrə Azərbaycandakı prosedurlar

8. Bakı şəhər İstilik Sistemləri İstehsalat birliyindən (Bakı şəhəri İcra Hakimiyyətinin tabeçiliyində) razılıq / rəy / şərtlərin əldə edilməsi 15 gün, 0 AZN
9. Bakı Telefon Rabitəsi İstehsalat Birliyindən razılıq / rəy / şərtlərin əldə edilməsi 15 gün, 60 AZN
10. Bakı şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma İdarəsindən tikinti passportunun əldə edilməsi 75 gün, 10000 AZN
11. Yanğın Nəzarət Xidmətindən (Fövqəladə Hallar Nazirliyi) texniki layihə sənədlərinin qaydasında olması barəsində bildiriş almaq 15 gün, 0 AZN
12. Gigiyena və Epidemiologiya Mərkəzindən layihə sənədlərinin qaydasında olması barəsində bildiriş almaq 15 gün, 0 AZN
13. Azərsu ASC-dan layihənin sənədlərinin qaydasında olması barəsində bildiriş almaq 15 gün, 0 AZN
14. Bakı Telefon Rabitəsi İstehsalat Birliyindən layihənin sənədlərinin qaydasında olması barəsində bildiriş almaq 15 gün, 60 AZN

# Doing Business – 2014: tikintiyə icazənin alınması indikatoru üzrə Azərbaycandakı prosedurlar

15. Ekologiya və Təbii sərvətlər nazirliyindən layihənin sənədlərinin qaydasında olması barəsində bildiriş almaq 15 gün, 0 AZN
16. Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə üzrə Dövlət Nəzarəti Agentliyindən layihə təhlükəsizliyi barəsində ekspert rəyinin alınması 15 gün, 30 AZN
17. Fövqəladə Hallar Nazirliyindən mühəndis-geoloqun rəyinin alınması 15 gün, 0 AZN
18. Bakı şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma İdarəsindən layihə dizaynının təsdiqlənməsinin əldə edilməsi 30 gün, 60 AZN
19. Fövqəladə Hallar Nazirliyi tərəfindən Layihənin seysmik sabitlik tələblərə uyğunluğunun yoxlanılması 20 gün, 1520 AZN
20. Fövqəladə Hallar Nazirliyi yanında İnşaat Təhlükəsizlik Nəzarəti Baş Agentliyində layihə sənədlərinin qeydiyyata alınması 15 gün, 60 AZN
21. Tikinti işləri zamanı nəzarət məqsədilə dövlət orqanları tərəfindən yoxlamaların aparılması - Əmək Müfəttişliyi tərəfindən yoxlama 3 gün, 0 AZN

# Doing Business – 2014: tikintiyə icazənin alınması indikatoru üzrə Azərbaycandakı prosedurlar

22. Ekologiya və Təbii sərvətlər Nazirliyi tərəfindən yoxlamaların aparılması
3 gün, 0 AZN
23. Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə üzrə Dövlət Nəzarəti Agentliyindən tikinti təhlükəsizlik qaydalarına riayət edilməsinin yoxlanılması
1 gün, 0 AZN
24. Fövqəladə Hallar Nazirliyinin Yanğın Nəzarət Xidmətindən yoxlamanın aparılması
1 gün, 0 AZN
25. Su və kanalizasiya xəttlərinə qoşulma — 7 gün, 0 AZN
26. Telefon xəttinə qoşulma — 7 gün, 200 AZN
27. Tikinti üçün icazənin əldə edilməsi və prosesin həyata keçirilməsi — 10 gün, 0 AZN
28. Binanın Daşınmaz Əmlak Reyesterində qeydiyyata alınması — 21 gün, 305 AZN

CƏMİ: 212 gün, 14201 AZN

# Doing Business – 2014: tikintiyə icazənin alınması indikatoru üzrə Azərbaycandakı prosedurlar

28 prosedurdan:

- 6-ı - Bakı Şəhər İcra Hakimiyyəti ilə əlaqəli prosedurlardır;
- 3-ü – Azərsu ASC ilə əlaqəli prosedurlardır;
- 2-i - Gigiyena və Epidemiologiya Mərkəzi ilə əlaqəli prosedurlardır;
- 8-i - Fövqəladə Hallar Nazirliyi ilə əlaqəli prosedurlardır;
- 3-ü - Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əlaqəli prosedurlardır;
- 3-ü - Bakı Telefon Rabitəsi İstehsalat Birliyi ilə əlaqəli prosedurlardır;
- 1-i - Əmək Müfəttişliyi ilə əlaqəli prosedurlardır;

# Doing Business – 2014, Ambarın tikintisinə icazənin alınması üzrə ölkələrin yeri (189 ölkə arasında)



# Doing Business – 2014, Tikintiyə icazənin alınması

Azərbaycan üzrə İndikatorlar:

| | 2014 | 2013 | DB üzrə ən yaxşı |
|---|---|---|---|
| Prosedulların sayı = | 28 | 28 | 6 (Honq Konq) |
| Prosedurların tamamlanması (təqvim günlərinin sayı) = | 212 | 212 | 26 (Sinqapur) |
| Xərclər (MMG-in adam başına düşənin %-i) = | 282.3 | 292.4 | 1.1 (Qətər) |

# Doing Business – 2014,
# Azərbaycanda tikintiyə icazənin alınması



# Doing Business – 2014, Azərbaycanda tikintiyə icazənin alınması üzrə prosedurların sayı



# Doing Business – 2014, Azərbaycanda tikintiyə icazənin alınmasına sərf edilən günlər



# Doing Business – 2014, Azərbaycanda tikintiyə icazənin alınması xərcləri



# Doing Business – 2014, Tikintiyə icazənin alınması

Müxtəlif ölkələr üzrə İndikatorlar:

| | Az. | Gürc. | Erm. | Qaz. | Rus. | Türk. | Ukr. |
|---|---|---|---|---|---|---|---|
| Prosedularının sayı = | 28 | 9 | 21 | 29 | 36 | 20 | 10 |
| Prosedurların tamamlanması (təqvim günlərinin sayı) = | 212 | 73.5 | 84 | 157 | 297 | 164 | 73 |
| Xərclər (MMG-in adam başına düşənin %-i) = | 282.3 | 14.9 | 68.4 | 87.3 | 89.0 | 142.5 | 607.1 |
| 189 ölkə arasında yeri | 180 | 2 | 79 | 145 | 178 | 148 | 41 |

# İlkin təkliflər

1. Eyni dövlət qurumuna müraciətlərin sayı birə endirilməlidir;
2. Vahid pəncərə sistemi tətbiq edilməlidir;
3. Əsassız qiymətlər endirilməlidir;
4. Prosedurlarla əlaqəli günlərin sayı azaldılmalıdır;
5. Səffaflığın artırılmalı və sahibkarların məlumatlandırma sistemi təkmilləşdirilməlidir